ELŞAD MIRBƏŞIROĞLU
*Politologiya və sosiologiya kafedrasının müəllimi, siyasi elmlər namizədi*

# ERMƏNISTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQIŞƏSININ TƏNZIMLƏNMƏSI ISTIQAMƏTINDƏ HEYDƏR ƏLIYEVIN FƏALIYYƏTI

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində tənzimlənməsi istiqamətində ümummilli lider Heydər Əliyevin misilsiz fəaliyyətininin görünən və görünməyən, bizə məlum olan və xəbərdar olmadımız tərəflərini işıqlandırmaq, təhlil etmək üçün böyük bir tədqiqat məktəbinin yaradılmasına ehtiyac vardır. Heydər Əliyev hakimiyyətə gələnədək artıq de-fakto ermənilərin əlində olan Qarabağın de-yuri də Azərbaycandan qoparılması prosesi gedirdi və o vaxtkı səriştəsiz hakimiyyət bu prosesin qarşısında tam gücsüzlük və cılızlıq nümayiş etdirirdi. O zamankı Azərbaycan rəhbərliyinin siyasi iradəsizliyindən və səriştəsizliyindən, ölkədə yaranmış anarxiyadan, hakimiyyət uğrunda aparılan qeryi-sivil mübarizədən "yararlanan" Ermənistan Azərbaycanın Dağlıq Qarabağ ərazisində qeyri-konstitusion hakimiyyət stukturlarını yaratmağa başladı. Nəticədə Dağlıq Qarabağ separatçıların və Ermənistan silahlı qüvvələrinin tam hərbi nəzarətinə keçdi. Ölkədəki daxili özbaşınalıqlar, Azərbaycanın real parçalanmaq təhlükəsi möhkəm siyasi iradəyə, böyük idarəetmə təcrübəsinə malik və xalqına səmimi məhəbbət bəsləyən bir liderin xalqın başına gəlməsi zərurətini qəti şəkildə ortaya qoydu. Beləliklə 1993-cü ilin iyununda xalqın təkidli istəyi ilə Heydər Əliyevin Azərbaycanda ali siyasi hakimiyyətə ikinci dəfə möhtəşəm qayıdışı baş verdi. Artıq qeyd etdiyimiz kimi, ümummilli lider Heydər Əliyevin Azərbaycanda ali hakimiyyətə növbəti dəfə qayıdışı daxili xaosun pik həddinə çatması ilə yanaşı, ölkəmizin, dünyanın supergüclərinin müdhiş maraqlarının kəskin toqquşduğu gərgin geosiyasi məkana çevrildiyi tarixi bir zamana təsadüf etmişdir. Müxtəlif dövlətlərin toqquşan maraqları arasında manevr edərək ölkənin işğal altında olan ərazilərinin anneksiyasının (ərazinin hüquqi mənsubiyyətinin dəyişdirilməsi) qarşısını almaq üçün yüksək siyasi iradə, əzmkarlıq və stabillik tələb olunurdu. Dağlıq Qarabağın hüquqi mənsubiyyətinin dəyişdirilərək, Ermənistana birləşdirilməsi prosesinin qarşısını almaq iqtidarında olan siyasi iradə və əzmkarlık məhz yalnız Heydər Əliyev kimi liderə xas ola bilərdi. Bu gün Dağlıq Qarabağ və bir sıra ətraf rayonlar de-fakto Ermənistanın nəzarətində olsa da, məhz Heydər Əliyevin siyasi iradəsi nəticəsində de-yuri Azərbaycanın ərazisi olaraq qalmaqdadır və dünya ictimaiyyəti bunu qəbul edir.

Dahi diplomat Heydər Əliyevin müəyyənləşdirdiyi xarici siyasi kursun bir istiqaməti də müasir tələblərə cavab verən ordu quruculuğuna yönəlmişdir. Dünya standartlarına cavab verən Azərbaycan Ordusunun formalaşdırılması Heydər Əliyevin ən ali məqsədlərindən biri idi. Bu məqsədlə ümummilli lider beynəlxalq təşkilatlar, xüsusilə də NATO ilə əməkdaşlığa xüsusi diqqət yetirmiş, müasir tələblərə cavab verən hərbi potensiala malik dövlətlərlə əlaqələrin inkişafı üçün əməli addımlar atmışdır. (1)

Artıq qeyd etdiyimiz kimi, Heydər Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsini birmənalı olaraq ölkənin xarici siyasətinin prioritet istiqaməti kimi müəyyənləşdirmişdir. Münaqişənin aradan qaldırılması istiqamətində ən yüksək səviyyədə dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli və eləcə də çoxtərəfli görüşlərdə, beynəlxalq forumlarda, ATƏT-in zirvə görüşlərində, Minsk qrupunun həmsədrləri ilə aparılan müzakirələrdə, həmçinin Ermənistan Prezidenti ilə təkbətək danışıqlarda göstərdiyi ardıcıl səylər, hər

zaman Azərbaycan xalqının və dövlətinin maraqlarını hər şeydən uca tutması Heydər Əliyevin siyasətinin mühüm hissəsini təşkil edirdi.

Heydər Əliyevin təşəbbüsü ilə, onun qətiyyəti, əzmkarlığı və uzaqgörənliyi nəticəsində 1994-cü ilin may ayının 12-də Ermənistanla Azərbaycan arasında atəşkəs haqqında razılaşma imzalandı. Atəşkəs rejiminin tətbiq edilməsi "Bişkek protokolu"nda əksini tapmışdır. Yenə də Heydər Əliyevin iradəsi ilə tərəflərə təqdim edilən "Bişkek protokolu"nda Azərbaycanın xeyrinə bir sıra düzəlişlər edilmişdir. Belə ki, Rusiyanın nəzarəti altında hazırlanan protokolda Azərbaycanın işğal edilmiş əraziləri sadəcə "tutulmuş ərazilər" kimi ifadə olunurdu. Azərbaycan tərəfi buna qarşı çıxaraq protokolun 5-ci abzasında "tutulmuş ərazilər" sözünün "işğal olunmuş ərazilər"lə əvəzlənməsinə nail olmuşdur. (2, s. 23)

Heydər Əliyev hesab edirdi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində dinc vasitələrlə həll etmək üçün diplomatik güc malik olmaq vacibdir. Bununla yanaşı Heydər Əliyev çox böyük müdrikliklə fikirləşirdi ki, diplomatiyanın keçərli olması üçün onun arxasında güclü iqtisadiyyat və ordu olmalıdır. Həqiqətən də, bu, olduqca uğurlu strategiya hər gün öz bəhrəsini verməkdədir. Belə ki, hakimiyyətə qayıtdıqdan sonra ümummilli lider Heydər Əliyevin gərgin səyləri nəticəsində əldə olunmuş siyasi sabitlik Azərbaycanda köklü iqtisadi islahatların həyata keçirilməsinə imkan verməklə ölkəmizi dünyanın ən dinamik inkişaf edən dövlətlərindən birinə çevirmişdir.

Ölkənin iqtisadi potensialının günü-gündən artması hərbi sahədə də uğurlu islahatların həyata keçirilməsinə imkan vermişdir. Onu da qeyd etmək lazımdır ki, Heydər Əliyev, Azərbaycan haqqında ən böyük arzularından birinə uyğun olaraq müasir tələblərə cavab verən Azərbaycan Ordusunun formalaşdırılması istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirmişdir. Məsələn, onun siyasi iradəsi və uzaqgörənliyi nəticəsində Azərbaycan Respublikası 1994-cü ildə NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşulmuşdur. Qeyd edilən proqramda iştirak sözsüz ki, Azərbaycan Ordusunun şəxsi heyətinin və maddi-texniki bazasının müasir standartlara uyğunlaşdırılmasına imkan verməklə yanaşı, Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sistemində mövqelərinin möhkəmləndirilməsini şərtləndirmişdir. Bütün bu nəaliyyətlərin əldə edilməsində artıq qeyd etdiyimiz kimi, daxili siyasi sabitlik və iqtisadi inkişaf həlledici rol oynamışdır.

Ümummilli lider Heydər Əliyev böyük uzaqgörənliklə enerji və hərbi kimi önəmli əməkdaşlıq məsələlərində Türkiyə və ABŞ-a daha çox üstünlük vermişdir. "Bir millət-iki dövlət" məşhur ifadəsi də məhz ümummilli lider Heydər Əliyevə məxsusdur. Heydər Əliyev diplomatik səyləri nəticəsində Türkiyə ilə əməkdaşlıq demək olar ki, bütün sahələri əhatə etmişdir. Ulu öndərin müəyyənləşdirdiyi bu xarici siyasət kursu Azərbaycanı bir çox xarici problemlərdən qorumaqla yanaşı Dağlıq Qarabağ problemi ilə bağlı ölkəmizin daha qətiyyətli mövqe nümayiş etdirməsinə də imkan vermişdir.

Heydər Əliyev hesab edirdi ki, münaqişənin dinc vasitələrlə həllinə nail olmaq üçün, öncə onu Rusiyanın inhisarından çıxarmaq lazımdır. Məhz ulu öndərin gərgin əməyi nəticəsində 1994-cü il dekabrın 5-6-da ATƏM-in (bu sammitdən sonra ATƏT) Budapeştdə keçirilən Zirvə görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq səviyyədə müzakirə olunmuş və bir neçə əhəmiyyətli qərar qəbul olunmuşdur. Belə ki, problemin dinc vasitələrlə aradan qaldırılması məqsədi ilə 1992-ci ildə yaradılmış Minsk qrupunun həmsədr institutu təsis edilmişdir və Rusiya ilə bərabər Finlandiya da vasitəçi qismində münaqişənin tənzimlənməsi prosesinə cəlb edilmişdir. Heydər Əliyev diplomatik əzmkarlıq və siyasi iradə nümayiş etdirərək, Budapeşt zirvə toplantısında açıq bəyan etmişdir ki, Minsk qrupuna bir sədrin rəhbərlik etməsi çətin-

lik yaradır. Bu baxımdan ona daha çox sədrin rəhbərlik etməsinə ehtiyac vardır. Deməli, Azərbaycan xarici siyasət konsepsiyasının banisi, ümummilli lider Heydər Əliyevin Budapeşt sammitindəki gərgin fəaliyyəti nəticəsində Dağlıq Qarabağ probleminin Rusiyanın inhisarından çıxarmaq mümkün olmuşdur. (3, s.53)

Budapeşt sammitində qəbul olunmuş digər əhəmiyyətli qərar ATƏM sülhməramlı qüvvələrin yaradılması ilə bağlı idi. Bunlardan başqa münaqişənin tezliklə aradan qaldırılaraq, regionda sülhün və təhlükəsizliyin təmin olunması ilə əlaqədar ATƏM-in fəaliyyətinin intensivləşdirilməsi barədə də qərar qəbul olunmuşdur.

Ümummilli lider Heydər Əliyev sülhməramlı qüvvələr məsələsinin Azərbaycan üçün çox əhəmiyyətli olduğunu bildirib. O, məsələ ilə bağlı qeyd etmişdir ki, ATƏM-in sülhməramlı qüvvələrinin yaradılması və bizim bölgəyə göndərilməsi məsələlərinin müzakirə edilməsi bizim üçün çox əhəmiyyətlidir. Çünki, demək olar, ilk dəfədir ki, belə zirvə görüşündə bu məsələ xüsusi bir məsələ kimi gündəliyə salınıbdır və müzakirə olunacaqdır, ona görə də biz bu görüşdən çox şeylər gözləyirik."

1996-cı il dekabrın 2-3-də Lissabonda ATƏT dövlət və hökumət başçılarının Zirvə toplantısı həm Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi baxımından, həm də Heydər Əliyevin diplomatik fəaliyyətinin qiymətləndirilməsi baxımından əhəmiyyətlidir. Lissabon sammitinin əhəmiyyəti həm də ondan ibarət idi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də daxil olmaqla ümumilikdə Qafqazdakı vəziyyət yüksək səviyyədə geniş müzakirə olunmuşdur.

Lissabon sammitindən əvvəl ümummilli lider ATƏT üzvü olan dövlət başçılarına Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ATƏT prinsipləri, BMT nizamnaməsi və beynəlxalq hüququn ümumi qaydalarına uyğun həll prinsipləri haqqında məktublar göndərmişdir. Ümummilli liderə göndərilən cavab məktublarında üzv dövlətlərin rəhbərləri Azərbaycanın mövqeyini dəstəklədiklərini bildirmişlər. Heydər Əliyevin münaqişənin dinc vasitələrlə həll etmək arzusunda olmasını bir daha sübut edən həmin prinsiplər aşağıdakılardan ibarət idi:

- Azərbaycan və Ermənistanın ərazi bütövlüyünün tanınması;
- Azərbaycanın tərkibində Dağlıq Qarabağa ən yüksək özünüidarə statusunun verilməsi;
- Dağlıq Qarabağ əhalisinin təhlükəsizliyinin təmin edilməsi.

Heydər Əliyev münaqişəsinin göstərilən prinsiplər əsasında aradan qaldırılmasının müsbət nəticələr verəcəyini vurğulayaraq demişdir: "Əminəm ki, münaqişənin BMT nizamnaməsi, ATƏT prinsipləri və beynəlxalq hüquq əsasında aradan qaldırılması az bir vaxt ərzində Ermənistan ilə Azərbaycan arasında uzunmüddətli möhkəm sülh yaranmasına imkan verəcək, erməni və Azərbaycan xalqları arasında xoş münasibətləri bərpa edəcək, Dağlıq Qarabağın bütün əhalisi üçün ən əlverişli şərait yaradacaqdır."

Ümummilli lider münaqişə bölgəsində tezliklə sülhün və təhlükəsizliyin təmin olunması naminə bütün mümkün vasitələrdən yararlanmağa çalışmışdır. Belə ki, Lissabon sammitindəki çıxışında yüksək kürsüdən Ermənistan prezidentinə və xalqına da sülh çağırışları etmişdir. O, ATƏT üzvlərinin hamısını bütövlükdə Dağlıq Qarabağ məsələsinin həllinə kömək etməyə çağıraraq demişdir: "Mən ATƏT-in Lissabon Zirvə görüşünün iştirakçısı olan dövlət və hökumət başçılarına üz tutub onlardan xahiş edirəm ki, Avropada sürəkli və viranedici münaqişələrdən biri olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə aradan qaldırılması üçün səylərini əsirgəməsinlər." (4)

Ümumilli lider bu cür sülh çağırışları etməklə yanaşı bəyan edirdi ki, Azərbaycanın milli maraqlarını heç bir halda, heç nəyə qurban verməyəcəkdir. Elə həmin sammit-

də də bəyan etmişdir ki, Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılmasına heç vaxt yol verilməyəcəkdir.

Ümummilli liderin sülh çağırışlarına baxmayaraq Ermənistan nümayəndə heyəti yuxarıda qeyd edilən prinsiplərin Lissabon bəyannaməsinin 20-ci maddəsinə salınmasına veto qoydular. Heydər Əliyev də öz növbəsində, buna cavab olaraq ATƏT-in Lissabon sənədinə bütövlükdə veto tətbiq etmişdir. Belə olan halda, ABŞ nümayəndə heyətinin başçısı Albert Qorun təklifi ilə həmin prinsiplər ATƏT-in fəaliyyətdə olan sədrinin ayrıca bəyanatında səsləndirilmişdir. ATƏT-in rəsmi sənədləri sırasına daxil olan bəyanatda bu müddəaların Zirvə görüşündə iştirak edən 53 ATƏT üzvü tərəfindən bəyənildiyi də göstərilib. Bu Heydər Əliyevin böyük qələbəsi idi.

Lissabon toplantısında ümummilli lider Heydər Əliyev həm bir daha Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyəti toplantı iştirakçılarının və dünya ictimaiyyətinin nəzərinə çatdıraraq Ermənistanın təcavüzkar dövlət olmasını bəyan etmişdir. Əlbəttə, bu erməni təbliğatına böyük zərbə idi və gələcək danışıqlar zamanı Azərbaycanın mövqeyinin güclənməsinə xidmət etmişdir.

1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul Zirvə toplantısında da ümummilli lider Heydər Əliyev bir daha bəyan etmişdir ki, Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş əraziləri azad edilməlidir. Yalnız bundan sonra Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağa müvafiq status verilə bilər. Heydər Əliyev İstanbul Zirvə toplantısında həmçinin demişdir: "Cənubi Qafqaz regionu Avropanın ayrılmaz hissəsidir. Mən ABŞ-ın, Avropa Birliyi ölkələrinin, Rusiyanın, Türkiyənin, Gürcüstanın, Ermənistanın və ATƏT-in marağı olan bütün digər üzvlərinin dövlət və hökumət başçılarına müraciət edərək onları regionumuzun problemlərinin həlli üçün qətiyyətli fəaliyyət göstərməyə çağırıram. Mən Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktının təsis olunmasını təklif edirəm. Belə bir pakt dövlətlərarası münasibətlərin və münaqişələrin aradan qaldırılmasının prinsipal əsaslarını təsbit etməlidir." (5)

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi istiqamətində fəaliyyətini tam təhlil etmək üçün böyük bir tədqiqat məkbətinə ehtiyac vardır. Müasir dünyada əksər dövlətlərin ərazilərində müxtəlif gərginlik səviyyəsinə malik olan münaqişələr mövcuddur. Lakin, həmin dövlətlərin heç birinin rəhbəri problemin dinc vasitələrlə, həm də dövlətinin milli maraqlarına uyğun şəkildə aradan qaldırılması istiqamətində Heydər Əliyev qədər canıyananlıqla, fədakarcasına çalışmamışdır. Ümummilli liderimiz Heydər Əliyev 1993-2000-ci illər arasında ATƏT rəhbərliyi və Minsk qrupunun təmsilçiləri ilə 130-dan çox görüş keçirmişdir. ATƏT-ə üzv olan ölkələrin liderləri ilə keçirilən görüşləri, aparılan danışıqları da buraya əlavə etsək, Dağlıq Qarabağ münaqişəsini həll etməyi öz üzərinə götürmüş bu beynəlxalq qurumla Azərbaycanın nə qədər sıx və intensiv işlədiyi, qarşılıqlı əməkdaşlıq etdiyi aydın olar. Heydər Əliyev 1993-cü ildən 2001-ci ilədək 68 ölkənin prezidentləri və dövlət başçıları ilə 485 görüş keçirmişdir. Bu görüşlərin hamısında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə olunmuşdur. Konkret rəqəmlərlə ifadə etsək, Heydər Əliyev ABŞ-ın Prezidenti, xarici işlər naziri ilə bu məsələni 18, Fransa rəhbərləri ilə 16, Rusiya rəhbərləri ilə 23, Türkiyə rəhbərləri ilə 78 dəfə müzakirə etmişdir. BMT-nin baş katibləri ilə onlarca görüş olmuşdur, NATO-nun, Müstəqil Dövlətlər Birliyinin Zirvə görüşlərində, İslam Konfransı Təşkilatının iki, İqtisadi Əməkdaşlıq Təşkilatının dörd Zirvə görüşündə, türkdilli ölkələrin dövlət başçılarının Zirvə görüşlərində hər dəfə Heydər Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini gündəliyə çıxarmışdır. Bu cür əzmkarlıqla, yorulmadan gərgin fəaliyyəti yalnız, millətinə, torpağına, dövlətinə

həqiqi bağlı olan, xalqını həddsiz sevən Heydər Əliyev kimi dövlət başçısı, dahi şəxsiyyət və əsl lider həyata keçirə bilərdi. (6)

Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə, ölkəmizin beynəlxalq münasibətlər sistemində ciddi mövqe tutmasına, milli maraqlarının təmin olunmasına və ən başlıcası, ərazi bütövlüyünün bərpa edilməsinə hesablanmış Heydər Əliyev strategiyası bu gün onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Ölkə daxilində siyasi sabitliyin qorunub saxlanılması və daha da möhkəmləndirilməsi, iqtisadi sahədə müşahidə olunan davamlı yüksəliş, Azərbaycan Ordusunun əhəmiyyətli dərəcədə güclənməsi ondan xəbər verir ki, dövlətimizin, xalqımızın taleyi etibarlı əllərdədir. Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqının milli maraqlarına tam cavab verən neft strategiyasının mühüm tərkib hissəsi olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri ideyasının Prezident İlham Əliyev tərəfindən reallaşdırılması müstəqil Azərbaycanın iqtisadi və siyasi həyatında yeni tarixi mərhələinin başlanğıcını qoymuşdur. Belə ki, BTC-nin reallaşması Azərbaycanın regionda lider dövlət və təhlükəsizliyin təminatçısı kimi mövqelərinin daha da möhəmlənməsini şərtləndirmişdir. Prezident İlham Əliyev BTC haqqında demişdir: "Mən şübhə etmirəm ki, Bakı-Tbilisi-Ceyhan Azərbaycan xalqına, bizə qonşu, dost ölkələrə böyük sərmayə, fayda gətirəcəkdir. Bu gəlir, əlbəttə ki, ilk növbədə bizim iqtisadi problemlərimizin həlli üçün bizə kömək edəcəkdir. Sosial problemlərin həlli də öz əksini tapmalıdır. Amma eyni zamanda biz onu da gözəl bilirik ki, regionda təhlükəsizlik sisteminin möhkəmləndirilməsi işində bu kəmərin rolu çox böyük olacaqdır."(7)

Göründüyü kimi, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan Azərbaycanın stabil sosial-iqtisadi inkişaf strategiyası Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilməkdədir. Ölkə prezidenti Azərbaycanının günü-gündən artan iqtisadi, hərbi və uyğun olaraq diplomatik gücündən torpaqlarımızın erməni işğalından azad edilməsi istiqamətində böyük məharətlə istifadə edir. Cənab prezident Azərbaycanın regionun ən güclü dövləti olmasına işarə edərək, çıxışlarının birində erməni tərəfi ilə hətta danışıqların aparılmasının özünü Azərbaycanın edə biləcəyi ən böyük güzəşt adlandırmışdır. Ölkə prezidenti İlham Əliyev münaqişə ilə bağlı çıxışlarında həmişə, sülh üçün bütün imkanlardan istifadə edəcəyini bildirir. Bununla yanaşı Azərbaycan Prezidenti İlham Əliyev nəticəsiz danışıqların sonsuzluğa qədər davam etdirilməsinin əleyhinə olduğunu və danışıqlar nəticə vermədiyi halda, Azərbaycanın öz torpaqlarını hərbi yolla işğaldan azad etməyə qadir olduğunu bəyan etmişdir.

### *ƏDƏBIYYAT*

1.Əliyev H.Ə. Münaqişə tezliklə həll olunmalıdır. Respublika Prezidenti ATƏT-in Minsk Qrupunun həmsədrlərini qəbul etmişdir./Azərbaycan qəzeti. 1997, 7 noyabr.
2.Heydər Əliyev: "Biz Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaranmasına yol verə bilmərik" (dörd dildə). Bakı. "Heydər Əliyev irsi" Beynəlxalq Elektron Kitabxanasının nəşri", 2006, 472s.
3.Əliyev H.Ə. "Azərbaycan nefti dünya siyasətində", B., 1997 s.53-81
4.www.karabakh.org
5.www.khocaly.org.az
6.www.mns.gov.az
7.www.azerbaican.new

Tarix və onun problemləri, №1-2 2009

**ЭЛЬШАД МИРБАШИР ОГЛЫ**
*кандидат политических наук*

## ДЕЯТЕЛЬНОСТЬ ГЕЙДАРА АЛИЕВА В УРЕГУЛИРОВАНИИ АРМЯНО-АЗЕРБАЙДЖАНСКОГО, НАГОРНО КАРАБАХСКОГО КОНФЛИКТА

Для того, чтобы в полной мере осмыслить и проанализировать различные видимые и невидимые стороны деятельности общенационального лидера Гейдара Алиева в направлении разрешения проблемы Армяно-Азербайджанского, Нагорно Карабахского конфликта в рамках территориальной целостности Азербайджанской Республики есть большая необходимость в создании исследовательской школы. До возвращения во второй раз во власть общенационального лидера Гейдара Алиева можно сказать, что де-факто произошел процесс оккупации исконных Азербайджанских территорий и делалась активная попытка его юридического закрепления. Это стало возможным в результате безволия и политической несостоятельности тогдашнего руководства. Хаос во внутриполитических отношениях и неумения тогдашнего руководства эффективно управлять общественными процессами привели к гражданскому противостоянию, что создало угрозу территориальной целостности государства. В этих условиях интеллигенция, поддерживаемая Азербайджанским народом обратилась к Гейдару Алиеву с просьбой вернуться к власти для того, чтобы вывести страну из сложившейся критической ситуации.

**ELSHAD MIRBASHIROGLU**
*candidate of political science*

## ACTIVITY OF H. ALIEV IN THE DIRECT OF SETTLEMENT ARMENIAN-AZERBAIJAN, NAGORNO KARABAKH CONFLICT

To the full to comprehend and analyze various visible and invisible aspects of activity of the national leader H. Aliev in a direction of the permission of a problem Armenian-Azerbaijan, Nagorno Karabakh conflict within the limits of territorial integrity of the Azerbaijan Republic is the big necessity for creation of research school. Before returning in the second time in the power of the national leader H. Aliev it is possible to tell that there was de facto a process of occupation of primordial Azerbaijan territories and active attempt of its legal fastening became. It became possible as a result of lack of will and a political inconsistency of a management of that time. The chaos in internal political relations and inabilities of a management of that time effectively to operate public processes has led to civil opposition that has created threat of territorial integrity of the state. In these conditions the intelligence supported by the Azerbaijan people has addressed to H. Aliev with the request to return to the power to deduce the country from the developed critical situation.

***Rəyçilər: dos. V.M.Cəfərova, t.e.d.İ.X.Zeynalov.***
***BDU-nun Politologiya və sosiologiya kafedrasının 14 fevral 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №09).***